Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 37-43**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **с. 37-43**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 37-43**

UOT 372.878

M.T.Əliyeva
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: m.aliyeva@gmail.com

MUSİQİ DƏRSLƏRİNDƏ İNTEQRASİYALI TƏLİM

Açar sözlər: *inkişafedici təlim, inteqrasiya, idrak, humanitar fənlər bloku*

Musiqi dərslərində inteqrasiyadan istifadə musiqi təlimi prosesinə yenilik və orijinallıq gətirir. Belə dərslər bir sıra üstünlüklərə malikdir: uşaqların idrak marağlarını formalaşdırır, musiqi dünyasının bütöv, tam bir təsvirinin yaradılmasına təkan verir, biliklərin sistemliliyinə imkan yaradır, musiqi sahəsində bilik, bacarıq və vərdişlərin aşılanmasına, estetik qavramanın, təxəyyülün, diqqətin, musiqi yaddaşının, təpəkkürün inkişafına şərait yaradır.

М.Т.Алиева

ИНТЕГРАТИВНОЕ ОБУЧЕНИЕ НА УРОКАХ МУЗЫКИ

Ключевые слова: *развивающее обучение, интеграция, познание, блок гуманитарных дисциплин*

Уроки музыки с использованием интеграции привносят в процесс музыкального обучения инновации и оригинальность. Такие уроки имеют ряд преимуществ: формируют познавательные интересы детей и способствуют целостному восприятию музыкального мира, а также создают возможности для систематизации знаний, развития навыков и эстетического восприятия, воображения, внимания, музыкальной памяти, мышления.

M.T.Aliyeva

INTEGRATIVE TRAINING AT MUSIC LESSONS

Key words: *developing training, integration, knowledge, power humanities*

Music lessons with the integration bring to the learning process of innovation

and originality. Such lessons have several advantages: generating educational interests of children and promote a holistic perception of the music world, as well as create opportunities for systematization of knowledge, development of skills and aesthetic perception, imagination, attention, musical memory, thinking.

Cəmiyyətimizin inkişafının müasir mərhələsində hərtərəfli harmonik inkişaf etmiş şəxsiyyətin yetişdirilməsi problemi ön plana çəkilmişdir. Tərbiyə işinə kompleks yanaşma mürəkkəb bir prosesdir ki, burada elmin əsaslarına maksimal yiyələnmə, biliklərin geniş diapazonu və onların tətbiqi, hər hansı bir sahədə yüksək ixtisaslaşma, şəxsi keyfiyyətlərin (məsələn, məqsədyönluluk, motivasiya, maraq və tələbat) inkişafı kimi məsələlərin həlli nəzərdə tutulur. Musiqi təlim-tərbiyəsi də ümumi təlim-tərbiyənin bir hissəsi olaraq bu vacib işdə mühüm vasitə kimi çıxış edir.

Tədrisə müasir yanaşma təlim prosesinə yenilik gətirilməsinə yönəldilməlidir, ki bu da bugünkü həyat və fəaliyyətin dinamik xüsusiyyətlərindən, müxtəlif təlim texnologiyalarının spesifikasından və sosial faydalı biliklərin tələbatından asılıdır. "Azərbaycanın təhsil tarixində artıq tələbəyönümlü bir təhsil sistemi formalaşır. Cəmiyyətmizin ehtiyac və tələbatlarına uyğun belə sistemin qurulmasında demokratikləşmə, humanistləşmə, inteqrasiya, differensiallaşma, fərdiləşmə, humanitarlaşma mühüm pedaqoji prinsiplər kimi nəzərə alınır." (1,12.). Şəxsiyyətyönümlülük isə daha çox inteqrativ bilik və bacarıqlara söykənən dəyərlərin mənimsənilməsini tələb edir ki, buna da yalnız inteqrativ təhsil prosesində nail olmaq mümkündür.

Musiqi təlim-tərbiyəsini yalnız musiqi dərslərinin cəlbedici xarakter daşıdıqda və musiqinin qavranılması prosesinin emosional gərginlik və maraq abu-havasını yaratdıqda həyata keçirmək olar. Bu səbəbdən musiqi dərslərinin təşkilində inteqrativ yanaşma mühüm rol oynayır.

Müasir dünyada inteqrasiya prosesləri obyektiv və zəruri bir reallığa çevrilmişdir. İnteqrasiya qloballaşan dünyanın təhsil aləmində aparıcı rol oynayır. Ona görə də informasiyanın sürətlə artdığı bir dövrdə cəmiyyətin dəyişkən dinamikasını izləmək və ona müvafiq olaraq inkişaf etmək üçün birləşmələr, bloklar yaratmaqla ümumiləşdirmələr aparmaq ən səmərəli strategiyalardan biri kimi qəbul edilir. Son dövrlər müasir təhsil konsepsiyasında "inteqrativ təlim", "inteqrativ dərs" anlayışları xüsusi pedaqoji texnologiyalardan biri kimi öz yerini möhkəmlədmişdir. Təhsildə inteqrasiya cəmiyyətin tərbiyə gücünün inteqrasiyası, bütövlükdə didaktik sistemin sintezi kimi çıxış edir.

Bu gün müasir pedaqoji elm inkişafedici təlimin yolunu fəal məqsədyönlü fəaliyyət vasitəsilə şagirdlərin tərbiyələndirilməsi kimi müəyyənləşdirir. "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd olunur ki, "Şagird-

lərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədi ilə sistemli tədbirlər görüləcəkdir" (2.). Göründüyü kimi, ölkəmizin təhsil siyasətində təfəkkür, düşüncə, intellekt məktəbinin yaradılması prioritet istiqamətlərdən biridir.

Təhsildə inteqrasiya bu gün insan fəaliyyətinin bütün sahələrini xarakterizə edən tendensiyaların əksidir. Elmi biliklərin artması ayrı-ayrı elm sahələri arasında sərhədləri silir və ixtisaslaşma o qədər də elm sahələri ilə deyil, nə qədər ki, problemlərin qoyuluşu və həlli ilə baş verir. İnteqrativ təlim – müasir metodikanın əsas yeniliklərindən biridir. Bu texnologiya məktəb proqramlarına cəsarətlə daxil olur və ilk baxışdan çətin uyğunlaşan fənləri bir birilə əlaqələndirir. İnteqrasiya müəllimə özünüifadə, özünürealizə etməyə, dərsə yaradıcı yanaşmağa və həmçinin şagirdlərin qabiliyyətlərinin aşkarlanmasına kömək göstərir. İnteqrativ təlimin əsas məqsədini şaqirdlərin əqli fəallığının artırılması təşkil edir. Y.Samarin assosiasiyalı təfəkkür nəzəriyyəsindən çıxış edərək hesab edir ki, məktəbdə inteqrasiya kəmiyyət xarakterini daşımalıdır: "hər şeydən biraz" (3). Uşaqlar yeni-yeni bilik və anlayışları mənimsəyərək, sistematik olaraq öz bilik dairələrini genişləndirir, yəni idrak prosesi spiralvari şəkildə hərəkət edir.

Təlimin məqsədi kimi inteqrasiya öyrənənə helə biliklər verməlidir ki, orada dünyanın ayrı-ayrı hissələrinin əlaqəli olması əks olunsun. Bu da, öz növbəsində, bütün elementləri bir-birilə bağlı olan dünyanın tam, vahid şəkildə qavranılma-sına zəmin yaradır.

Müxtəlif fənn biliklərinin yaxınlaşdırılması vasitəsi kimi inteqrasiya differensial biliklərin arasında boşluğun doldurulması və onların arasında əlaqənin yaradılmasına qulluq edir. İnteqrasiyanın əhəmiyyəti təlim prosesində çox böyükdür. İnteqrasiya öyrənənlərə müxtəlif hadisələrə və təzahürlərə təcrid olunmuş baxışından onların qarşılıqlı öyrənilməsinə keçməyə imkan yaradır. İnteqrasiya öyranənlərdə fənnə dair biliklərin səviyyəsinin yüksəlməsini, idrak maraqların formalaşmasını, yaradıcı fəaliyyətin fəallaşmasını, gərginliyin və yorgunluğun aradan qaldırılmasını təmin edir.

İnteqrativ təlimin tədbiqi müəllimə bir fənnin çərçivələrindən çıxmağa, dünyada hər şeyin əlaqəli olmasını əyani şəkildə göstərməyə və eyni zamanda şagirdlərdə öz fənninin öyrənilməsinə qarşı motivasiyanın artmasına imkan yaradır. "İnteqrasiya – müxtəlif sahələrdə ümumiləşdirilmiş biliklərin mümkün olduğu dərəcədə bir tədris materialına qarşılıqlı daxil olması, qarşılıqlı əlaqəsi deməkdir" (4,36.).

İnteqrativ dərslərdə uşaqlar asanlıqla işləyir və həcminə görə geniş materialı maraqla mənimsəyirlər. Burada şagirdlərin əldə etdiyi bilik və bacarıqların adi təlim situasiyalarında praktiki fəaliyyətlərində istifadəsindən əlavə, onların yaradıcı və intellektual qabiliyyətlərinin üzə çıxması böyük əhəmiyyət kəsb edir.

İnteqrativ dərslərin hazırlanması və keçirilməsi prosesi bir-neçə mərhələ elementlərindən ibarətdir: axtarış, hazırlıq, əsas (icra) və sonluq (refleksiya). Bununla onlar ənənəvi dərslərdən fərqlənirlər.

İnteqrativ dərslərinin keçirilməsinin mərhələləri:

1. Axtarış:

- mövzunun öyrənilməsinə motivasiyanın təmini;
- seçilmiş mövzuya dair materiallarının axtarışının təmini.

Nəticə:

İş üçün şagirdlədən ibarət qrupların hazırlığı.

2. Hazırlıq:

- məmbələrlə iş, mövzuya dair faktların yığılması;
- mövzuya dair söhbət, materiallara baxış.

Nəticə:

Hər bir iştirakçı öz tapşırıq sahəsənimüəyyənləşdirir.

3. Əsas (icra):

- əldə edilmiş materialları müstəqil istifadə etmək bacarığının inkişafı.

Nəticə:

Şagird tərəfindən təlimin kompleks xarakter daşıdığını, musiqi fənninin imkanlarından digər sahələrdə biliklərin ifadəsi üçün mümkünlüyünün dərk edilməsi.

4. Son mərhələ:

- şagirdlərin çıxışlarının müzakirəsi.

Nəticə:

Şagirdlər fənlərarası biliklərin istifadəsi imkanları barəsində xülasə verirlər.

İnteqrativ dərslər didaktikanın ən vacib prinsiplərindən biri olan təlimin sistemli olmasını təmin edir. Həmçinin belə dərslər şagirdlərin təfəkkür inkiçafı üçün optimal şərait yaradır, belə ki, onların abstraksiya qabiliyyəti inkişaf edir, kütlənin içindən əsası çıxarmaq, analogiyalar, təhlil, qarşılaşdırma və ümumiləşdirmə aparmaq bacarığı formalaşır. İnteqrativ dərslər şagirdlərin sistemli dünyagörüşünü inkişaf etdirir və şəxsiyyət kimi formalaşmasına gətirib çıxarır.

İnteqrasiya əsas pedaqoji prinsiplərdən biri olaraq musiqinin tədrisində mühüm rol oynayır. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədində (5.6) ümumi təhsilin pillələri və bu pillələr arasında əlaqə və ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik inkişaf etdirilməsi vacib pedaqoji tələb kimi qoyulmuşdur. Burada göstərilən konsentrik prinsip ideyasının özü də fənn daxili şaquli inteqrasiya kimi qiymətləndirilə bilər. Belə ki, birinci sinifdə bir bəstəkar haqqında verilən məlumat ikinci sinifdə bir daha zənginləşdirilmiş formada verilsə bunu şaquli inteqrasiya kimi qəbul etmək olar.

Təcrübə göstərir ki, tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin maraqlı və məzmunlu qurulması, uşaqlarda tədqiqatçılıq meyillərinin yaranması üçün lazımdır.

Musiqi təlimində fəndaxili əlaqə fənn üzrə məzmun xətləri və müvafiq standartlar arasında əlaqələrin müəyyən olunması və gözlənilməsinə xidmət göstərir. Fəndaxili əlaqənin təmin olunması tədris materiallarının mahiyyəti haqqında daha geniş təsəvvürlərin formalaşdırılmasına, bilik, bacarıq və vərdişlərin sistemli şəkildə aşılanmasına imkan yaradır. Fənlərarası əlaqə yolu ilə konkret anlayışların müxtəlif fənlərdə hansı forma və məzmunda əks olunması müəyyənləşdirilir. Şagirdlərdə müqayisələr aparmaqla ümumiləşdirmə bacarığının formalaşdırılmasına, tədqiqatçılıq qabiliyyətlərinin gücləndirilməsinə yönəldilir.

Ümumtəhsil məktəblərində musiqi dərsləri psixoloji və pedaqoji qanunauyğunluğu, ümumdidaktik prinsip və metodlar baxımından bütün digər fənn dərslərinə bənzəyir. Lakin eynizamanda musiqi dərsinin fərqi bundadır ki, o, incəsənət dərsidir və burada humanitar fənlər blokunun inteqrasiyası vasitəsilə yeniyetmənin şəxsiyyətinin daxili aləmi, mənəviyyatı formalaşır, emosional sferasının oyanışı baş verir.

Ümumi musiqi təlimi sistemində yeniyetmənin mənəvi-əxlaqi mədəniyyətinin formalaşdırılmasının səmərəliliyini təmin edən pedaqoji şərait kompleksində düzgün mühitin yaradılmasının mühüm rolu vardır ki, burada uşağın təlim-tərbiyyəsi və şəxsiyyətinin formalaşdırılması aparılır. Dərsdə yaradılan düzgün musiqili təlim-tərbiyə mühiti inkişafedici funksiyalara malikdir ki, burada yeniyetmə inkişafın həm subyekti, həm də eynizamanda obyekti kimi çıxış etməlidir. Yaradılmış təlim-tərbiyə mühitində inteqrativ təlim kimi qoyulmuş məqsədə yalnız yeniyetmənin yaradıcı resurslarının və potensiallarının işə salınması və inkişaf proseslərinə daxil olunması yolu ilə çatmaq olar.

Bu baxımdan musiqinin fəndaxili və humanitar blokuna daxil olan fənlərlə fənlərarası inteqrasiyası böyük məna daşımağa başlayır. Hərtərəfli inteqrasiya uşaqların maraq dairəsini, bilik əldə etmək istəyini artırır.

Müasir dövr informasiyalar bolluğu ilə müşayiət olunduğundan təbii olaraq öyrədici xarakter daşımağa başlayır. İnformasiyaların mənbəyi insanları izləməklə onların marağını çəkir. Belə bir mühitdə dərs özünün öyrədici təşkilatçı xarakteri ilə daha üstün keyfiyyətlər qazanmalı, öyrənənlərin marağına səbəb olmalıdır. Ümumtəhsil məktəblərində qurulan dərslər istər məzmun, istərsə də texnoloji cəhətdən şagirdlərin diqqətini cəlb etməlidir.

Araşdırmalar onu göstərir ki, gərginlik yaradan, uşaqların diqqətini yoran dərsin bir cəhəti onun standart quruluşa malik olması, qeyri-çevik modellə

tənzimlənməsidir. Musiqinin digər humanitar fənlərlə inteqrasiyası vasitəsilə pedaqoji təşkil olunmuş bir dəyərli təhsil mühiti yaranmış olur ki, burada yeniyetmənin mənəvi və əxlaqi mədəniyyətinin formalaşdırılması prosesi baş verir.

Humanitar blokun fənləri ilə inteqrasiyalı musiqi dərsləri həmçinin daha əhəmiyyətli məsələləri həll edə bilər, belə ki, burada bilik almağa maraq oyanır. Məsələn, tarix fənni ilə inteqrasiya şagirdlərdə həm musiqi, həm də ümumi tarixə qarşı marağın oyanmasına, biliklərin artmasına təkan verir. İnformatika fənni ilə inteqrasiya dərsi qeyri-adi maraqlı formada keçirilməsinə və bununla da uşaqların kompyüterə qarşı təbii maraqlarını həm də musiqiyə yönəltməyə imkan yaradır. Ədəbiyyatla inteqrasiya musiqi materialının mətnini bir qədər də dərindən anlamağa, şerin və musiqinin vəhdətini duymağa yardım edir.

İnteqrasiyalı musiqi dərsləri müxtəlif formalarda, o cümlədən də qeyri-standartt formalarda keçirilə bilər. Məsələn, dərs-bilik mübadiləsi, dərs-qarşılıqlı yoxlama, dərs-qəzet buraxılışı, yardıcı axtarışlar dərsi, dərs-yaradıcı işlərin müdafiyəsi, dərs-müsabiqə yaxud auksion və s.

Tədris prosesində müəllim axtarış və tədqiqat fəaliyyətini təşkil edə bilər. Şagirdlər öz layihələrini sinif, məktəb, rayon səviyyəsində müdafiyə edə bilər. İnteqrasiyalı dərslərdə müəllim uğur abu-havasını yaratmalıdır, şagird-müəllim əməkdaşlığı bütün mərhələlərdə özünü biruzə verməlidir. İnteqrasiyalı dərslər qoyulmuş mövzunu hərtərəfli əhatə etməlidir ki, bu da müxtəlif hazırlıq səviyyəsi olan uşaqlarda da özünə inam hissini yaradır. İnteqrativ təlimin təşkilində şagirdlərin yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır. İnteqrasiyalı dərslərdə şagirdlərin kollektiv yaradıcılığından istifadə etmək faydalıdır, çünki belə yanaşma uşaqların idrak maraqlarını artırır və kollektivdə birgə işləmə bacarığını formalaşdırır.

Beləliklə, bütün yuxarıda dediklərimizdən belə nəticə çixarmaq olar ki, musiqi dərslərində inteqrasiyadan istifadə musiqi təlimi prosesinə yenilik və orijinallıq gətirir. Belə dərslər bir sıra üstünlüklərə malikdir: uşaqların idrak marağlarını formalaşdırır, musiqi dünyasının bütöv, tam bir təsvirinin yaradılmasına təkan verir, biliklərin sistemliliyinə imkan yaradır, musiqi sahəsində bilik, bacarıq və vərdişlərin aşılanmasına, estetik qavramanın, təxəyyülün, diqqətin, musiqi yaddaşının, təfəkkürün inkişafına şərait yaradır.

Məqalənin aktuallığı:

1. Musiqi fənninin fəndaxili və humanitar blokuna daxil olan fənlərlə fənlərarası inteqrasiyası böyük məna daşımağa başlayır. Hərtərəfli inteqrasiya uşaqların maraq dairəsini, bilik əldə etmək istəyini artırır.

2. Müasir təhsil sistemində fənlərarası və fəndaxili inteqrasiya məsələləri çox vacibdir, çünki inteqrasiya vasitəsilə yaradıcı şəxsiyyət böyütmək daha səmərəlidir. Yaradıcı şəxsiyyətin yetişdirilməsi isə ümumiyyətlə təlimin əsas məqsədlərindən biridir.

ƏDƏBİYYAT

1. A.Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı, 2010

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. B., 2013

3. Ю. Самарин. Очерки психологии ума, Москва, 1962

4. Т.Кенгерлинская. Интегративный принцип построения системы специальной педагогической и исполнительской подготовки студентов. Баку, 2007

5. "Azərbaycan Respublikasında ümumtəhsilin milli kurikulumu", Bakı, 2006

Məqalənin redaksiyaya daxil olma tarixi: 25.10.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 08.11.2019
Məqaləni çapa qəbul olunma tarixi: 29.12.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.